BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 *Humanitar elmlər seriyası* 2009

# AZƏRBAYCAN RESPUBLİKASININ GÖMRÜK SİYASƏTİ VƏ ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI İLƏ ƏMƏKDAŞLIQ: TARİXİ ASPEKTLƏR VƏ YENİ YANAŞMALAR

**A.M.MƏHƏRRƏMOV**
***Bakı Dövlət Universiteti***

Dünya iqtisadiyyatına sıx inteqrasiya yolu tutmuş Azərbaycan Respublikasının (AR) qarşısında duran mühüm vəzifələrdən biri kimi xarici iqtisadi fəaliyyətin gömrük tarif tənzimlənməsi bu sahədə bir sıra məsələlərin geniş şəkildə təhlilini tələb edir. Bu istiqamətlər arasında AR-in beynəlxalq iqtisadi təşkilatlarla qarşılıqlı əlaqələrini göstərmək olar. Dünya təcrübəsini mənimsəmək, inkişaf etmiş ölkələrin gömrük xidmətləri ilə sıx əlaqə qurmaq, onların təcrübəsindən istifadə etmək və gömrük işini Azərbaycanda köklü surətdə yaratmaq və inkişaf etdirmək – qarşıda duran ən böyük vəzifələrdən biridir [1]. Dövlətin iqtisadi təhlükəsizliyinin qorunmasında gömrük orqanlarının rolu əvəzsizdir. İqtisadi təhlükəsizliklə bağlı məsələlər təhlil edilərkən ədəbiyyatda haqlı olaraq göstərilir ki, iqtisadi təhlükəsizlik haqqında məsələ dövlətin, beynəlxalq cəmiyyətin mövcud olduğu qədər mövcud olacaqdır [14, 870].

AR-in dünya iqtisadiyyatına inteqrasiyasında gömrük siyasətinin hansı istiqamətdə qurulması onun dünya təsərrüfatı sistemində yerini göstərəcəkdir. Bu, bir tərəfdən AR-in dünya təsərrüfatı sisteminin ayrılmaz müstəqil bir hissəsi kimi mövcud olmasına gətirib çıxarırsa, digər tərəfdən dövlətin milli iqtisadiyyatının formalaşmasına və daha da inkişafına xidmət etməlidir. Azərbaycan Respublikasının Prezidenti İ.Əliyevin təbirincə desək, bizim də məqsədimiz budur ki, Azərbaycanda yerli istehsal inkişaf etsin, idxal azalsın və Azərbaycan öz daxili bazarını ölkəmizdə istehsal olunan məhsullarla təmin etsin [6].

Bütün bunlar AR qanunvericilik bazasının əsasını təşkil edir. Belə ki, 20 iyun 1995-ci il tarixli «Gömrük tarifi haqqında» AR Qanununun giriş hissəsində gömrük tarifinin əsas məqsədlərinin müəyyənləşdirilməsində milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfatı ilə səmərəli inteqrasiyası kimi iki mühüm istiqamət düzgün əlaqələndirilmişdir. Qeyd edilən müddəalar AR GM-də də əks olunmuşdur. Belə ki, AR Gömrük Məcəlləsinin (GM) 2-ci maddəsinin 3-cü bəndində birbaşa qeyd edilir ki, AR-in gömrük siyasəti gömrük işini beynəlxalq əməkdaşlığın inkişafına yönəldir [2, 13].

Gömrük siyasəti isə xarici ticarətin tənzimlənməsi, milli iqtisadiyyatın xarici təsirdən qorunması və digər maliyyə məsələlərinin həll edilməsi məqsədilə dövlətin iqtisadi və digər gömrük-hüquqi metodlarının sistemidir və xarici iqtisadi siyasətin həyata keçirilməsinə yönəlmişdir. Belə ki, AR GM-in 2-ci maddəsinin tələblərinə görə, gömrük siyasəti dövlətin daxili və xarici siyasətinin tərkib hissəsidir. Ümumiyyətlə, gömrük

münasibətləri beynəlxalq iqtisadi münasibətlərə əhəmiyyətli təsir göstərir. Gömrük siyasəti isə xarici iqtisadi fəaliyyətin və dünya birliyi ölkələrinin maraqlarının möhkəmləndirilməsində əsas vasitədir [9, 21].

Ədəbiyyatda qeyd edildiyi kimi, məqsədyönlü gömrük siyasəti idxalın strukturunu yüksək keyfiyyətli əlaqələrin xeyrinə dəyişdirmək, təkcə idxal edilən məhsulun deyil, eyni zamanda yerli məhsulların da qiymətinin aşağı salınmasına kömək etmək iqtidarındadır və bu sahədə gömrük orqanlarının mühüm funksiyası var [5, 8-9].

Beynəlxalq münasibətlər sistemində yeni dövlətlərarası əməkdaşlıq sferalarının yaranması və daha da inkişafı gömrük işi sferasında yaranan münasibətlərə daha geniş və bir-biri ilə qarşılıqlı əlaqədə yanaşmanı tələb edir. Belə ki, dövlətin gömrük işi bazarın formalaşması və inkişafında, onun dünya təsərrüfatına inteqrasiyasında mühüm faktor kimi çıxış edir [7, 26].

Dövlətin gömrük işi mürəkkəb kompleks xarakter daşıyır və bir-biri ilə qarşılıqlı əlaqədə olan mühüm elementlərdən ibarətdir. Həmin elementlər 10 iyun 1997-ci il tarixli AR GM-nin 1-ci maddəsində təsbit edilmişdir. Həmin maddənin tələblərinə müvafiq olaraq, AR gömrük işini malların və nəqliyyat vasitələrinin AR gömrük sərhədindən keçirilməsi qaydaları və şərtləri, gömrük ödənişlərinin alınması, gömrük rəsmiləşdirilməsi, gömrük nəzarəti və gömrük siyasətinin həyata keçirilməsinin digər vasitələri təşkil edir [2, 12].

Bütün bu məsələləri təhlil edərkən B.N.Qabriçidze gömrük işini 12 blok elementdə birləşdirir: 1) gömrük siyasəti; 2) malların və nəqliyyat vasitələrinin dövlətin gömrük sərhədindən keçirilməsi; 3) gömrük rejimləri; 4) gömrük tarif tənzimlənməsi; 5) gömrük ödənişləri; 6) gömrük rəsmiləşdirilməsi; 7) gömrük nəzarəti; 8) gömrük statistikası və xarici iqtisadi fəaliyyətin mal nomenklaturası; 9) qaçaqmal və gömrük işi sferasında digər cinayətlər; 10) gömrük qaydalarının pozulması və onlara görə məsuliyyət; 11) gömrük qaydalarının pozulması işləri üzrə icraat; 12) gömrük qaydalarının pozulması haqqında işlərə baxılması [8, 16-17].

Lakin bununla əlaqədar qeyd etmək lazımdır ki, bu təsnifat şərti xarakter daşıyır. Məsələn, gömrük ödənişləri və gömrük tarif tənzimlənməsinin bir blokda birləşdirilməsi və gömrük orqanlarının əməliyyat-axtarış fəaliyyətinin ayrıca blok elementi kimi göstərilməsinin mümkünlüyü qeyd edilə bilər. Bəzi ədəbiyyatlarda gömrük işi 8 blok elementdə birləşdirilir. Məsələn, İ.V.Timoşenko bu blok elementlərə aşağıdakıları aid edir: 1) malların və nəqliyyat vasitələrinin gömrük sərhədindən keçirilməsinin prinsipləri; 2) gömrük rəsmiləşdirilməsi; 3) gömrük nəzarəti; 4) gömrük tarif tənzimlənməsi və gömrük ödənişlərinin alınması; 5) gömrük rejimləri; 6) gömrük güzəştlərinin verilməsi; 7) gömrük statistikası və xarici iqtisadi fəaliyyətin mal nomenklaturasının aparılması; 8) gömrük işi sferasında hüquq pozuntularına görə məsuliyyətin hüquqi reqlamentləşdirilməsi [17, 33-34].

Bununla əlaqədar tam yəqinliklə qeyd etmək olar ki, bu blok elementlər özünün xarakteri və məqsədlərinə görə gömrük işi sistemində tutduğu yerdən asılı olmayaraq üzvi vəhdət təşkil edir və AR ümumi gömrük vəzifələrinə xidmət edir. Lakin bir faktı da xüsusi qeyd etmək lazımdır ki, gömrük işinə daxil olan ayrı-ayrı blok elementlər arasında gömrük işində tutduqları yerə görə ciddi fərqlər vardır. Məsələn, gömrük nəzarəti və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturası, göm-

rüк tarif tənzimlənməsi və gömrüк rəsmiləşdirilməsi və s.

Müasir anlamda gömrüк işi dövlətin daxili, xarici siyasəti və fəaliyyəti ilə bilavasitə əlaqədar olan mürəккəb кompleкs münasibətləri əhatə edir. Dövlət siyasəti çərçivəsində gömrüк işi müxtəlif məqsədli xaraкter daşıyır və həmin anlayış AR GM-in 2-ci maddəsində göstərilmişdir. Belə кi, həmin maddənin tələblərinə görə, dövlətin daxili və xarici siyasətinin tərкib hissəsi olan vahid gömrüк siyasəti həyata кeçirilir [2, 12]. Laкin bununla bərabər xüsusi qeyd edilməlidir кi, AR Gömrüк Məcəlləsinin 1-ci maddəsində gömrüк işinə verilən anlayış кifayət qədər dəqiq deyil. Başqa sözlə desəк, AR GM-in 1-ci maddəsində gömrüк işinə verilən anlayış onun məzmununu tam açmır. Belə кi, «gömrüк siyasətinin həyata кeçirilməsinin digər vasitələri» ifadəsi qeyri-dəqiqdir. Halbuкi qanunvericiliк çərçivəsində daha dəqiq məna ifadə edilə və gömrüк işinin mahiyyətini başa düşməyə imкan verə bilər.

Dövlətin gömrüк siyasəti bütün gömrüк fəaliyyətinin əsasını təşкil edir və ölкədə bazar münasibətlərinin formalaşdırılması şəraitində siyasi və iqtisadi sosial dəyişiкliкlərin dinamiк həyata кeçirilməsi vasitəsilə daxili və xarici iqtisadi maraqların və vəzifələrin müdafiəsinə yönəlmiş siyasi, hüquqi, iqtisadi, təşкilati və digər geniş əhatəli tədbirlər sistemidir [19, 3].

Bundan başqa, gömrüк siyasəti dövlətin xarici ticarət dövriyyəsinin (idxal və ixracın həcmi, struкturu və şərtləri) gömrüк sərhədindən mal və nəqliyyat vasitələrinin uyğun gömrüк rejimlərinin müəyyən edilməsi vasitəsilə кeçirilməsinin dövlət tənzimlənməsi üzrə məqsədyönlü fəaliyyət istiqamətlərini təyin edir. Daha sonra, göstərilir кi, gömrüк siyasəti xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsas prinsipləri ilə müəyyən olunur və həmin prinsiplər кimi bunlar fərqləndirilir. Məsələn, AR-ın xarici siyasətinin tərкib hissəsi кimi vahid xarici ticarət siyasəti; xarici ticarət fəaliyyətinin vahid dövlət tənzimləmə sistemi və onun həyata кeçirilməsinə nəzarət; vahid valyuta nəzarəti siyasəti; gömrüк ərazisinin bütövlüyü və s. [4, 19-50].

Digər tədqiqatlarda gömrüк işi elementlərinin, o cümlədən digər dövlətlərlə gömrüк münasibətlərinin realizəsində mühüm rol oynayan və rəhbər tutulan gömrüк siyasətinin bir sıra prinsipləri fərqləndirilir. Məsələn, gömrüк və xarici ticarət siyasətinin vahidliyi və bir-biri ilə sıx bağlılığı prinsipi, dövlətin və xarici iqtisadi fəaliyyət iştiraкçılarının iqtisadi maraqlarının müdafiə edilməsi prinsipi, qanunçuluq prinsipi, AR gömrüк siyasətinin gömrüк işini beynəlxalq əməкdaşlığın genişləndirilməsinə yönəltməsi prinsipi və s. [3, 232-233].

Gömrüк siyasətinə verilən anlayış müəyyən dərəcədə mürəккəb olsa da, gömrüк siyasətini xarici ticarətin tənzimlənməsi, milli iqtisadiyyatın müdafiəsi və bir sıra digər məsələlərin həll edilməsi məqsədilə dövlət iqtisadi və gömrüк - hüquqi tədbirlərin sistemidir. Digər dövlətlərlə sıx əməкdaşlıq münasibətlər quran AR üçün gömrüк siyasətinin tədqiqi gömrüк işinin praкtiкi tətbiqi və inкişafı üçün xüsusi əhəmiyyətə maliкdir. AR GM-in 2-ci maddəsinin 3-cü hissəsinin tələblərinə əsasən AR-da gömrüк işi hamılıqla qəbul edilmiş beynəlxalq normalar və təcrübə ilə uyğunlaşdırma və eyniləşdirilmə istiqamətində inкişaf etdirilir [2, 13]. Qeyd edilən müddəa AR GM-in 4-cü maddəsində daha da inкişaf etdirilmişdir. Orada göstərilir кi, AR beynəlxalq iqtisadi inteqrasiyanın inкişaf etdirilməsi və möhкəmlənməsi üçün digər dövlətlərlə gömrüк

ittifaqları, sərbəst iqtisadi zonalar yaradır, gömrük məsələləri üzrə beynəlxalq hüquq normalarına uyğun sazişlər bağlayır [2, 13-14].

Bu məsələləri əsas götürərək AR gömrük siyasətinin müəyyənləşdirilməsində aşağıdakı spesifik xüsusiyyətlər qeyd edilə bilər:

1) Azərbaycan Respublikasının demokratik cəmiyyət və islahatlar, yeni bazar münasibətləri yolu tutması və bununla da dövlətin daxili və xarici münasibətlərində bu məsələyə diqqətli yanaşma.

2) Digər dövlətlərlə sıx əməkdaşlıq münasibətləri quran AR üzrə gömrük sisteminin, gömrük rejimlərinin, gömrük nəzarətinin müəyyən edilməsi.

3) Dünya iqtisadiyyatına inteqrasiyada digər beynəlxalq təşkilatlara, o cümlədən gömrük işi sferasında beynəlxalq təşkilatlara daxil olmasında (məsələn, ÜTT-yə) gömrük siyasətinə yeni yanaşma tələb edilir.

Gömrük siyasəti müəyyən edilərkən A.D.Erşov 4 yanaşma göstərir: hakimiyyət – hüquqi yanaşma, təşkilati yanaşma, iqtisadi yanaşma və psixoetik yanaşma [9, 33].

İstənilən dövlətin gömrük siyasətinin formalaşdırılması bu istiqamətdə 2 mühüm yanaşmanı irəli sürür: proteksionizm və fritreyderçilik (sərbəst ticarət). Digər ədəbiyyatlarda gömrük siyasətinin nisbətən dəqiq konturlara malik 4 növü fərqləndirilir: proteksionizm, yumşaq proteksionizm, yumşaq sərbəst ticarət, sərbəst ticarət (fritreyderçilik) [4, 21].

Proteksionizm sənaye mülkiyyətinin, kənd təsərrüfatının daxili bazarda müdafiəsinə yönəldilmiş siyasətdir. Proteksionist gömrük siyasəti üçün yüksək gömrük tarifləri və idxalın məhdudlaşdırılması xarakterikdir. Fritreyderçilik azad ticarət siyasətidir. Gömrük proteksionizmi ilk olaraq İngiltərədə XVI əsrdə sənaye çevrilişi zamanı tətbiq edilməyə başlamışdır. Belə ki, İngiltərədə istehsalına başlanılmış malların xarici mallardan (xüsusən Hollandiya və fransız mallarından) qorunması məqsədilə həmin mallara yüksək rüsumlar qoyulmuşdur. Bundan başqa, İngiltərəyə malların gətirilməsinə də çoxlu məhdudiyyət qoyulmuşdur. Bütün bu tədbirlərin məqsədi Hollandiyanın xarici ticarət sferasında hakimiyyətin məhdudlaşdırılması və xüsusi mülkiyyətin inkişafının stimullaşdırılmasıdır. Sonradan həmin nümunə digər dövlətlərdə – İspaniya, İsveç və Fransada tətbiq edilməyə başlanılmışdır. İngiltərə proteksionizmi özünün 400 illik tarixinə malik olmaqla həm də ölkədə ağılla həyata keçirilən gömrük siyasətinin iqtisadiyyata pozitiv təsirinin əyani sübutudur. Sonradan həmin siyasət daha çox fritreyderçilik siyasətini nəzərdə tutur [17, 38].

Hazırda AR üzrə də gömrük siyasətinin müəyyənləşdirilməsi dünya iqtisadiyyatının inkişafının, o cümlədən ölkənin sosial-iqtisadi inkişaf tendensiyaları respublikamızın beynəlxalq əmək bölgüsü sistemində və dünya təsərrüfat əlaqələrinin inkişafında, həmçinin dünya cəmiyyəti və onun mühüm regional birlikləri ilə qarşılıqlı əlaqəsində müəyyən olunur. Buna uyğun olaraq AR-də gömrük siyasətinin müəyyənləşdirilməsinin bir sıra əsas xüsusiyyətlərini müəyyən etmək olar:

1. Gömrük siyasətinin müəyyən məqsədlərə nail olmaq üçün prioritet istiqamət sisteminə əməl edilməsi. Bu zaman AR maraqlarının təmin edilməsi, onun iştirak etdiyi blokların maraqlarının təmin edilməsi, dünya cəmiyyətinin bütövlükdə maraqlarının təmin edilməsi.
2. Ümummilli maraqların məcburi prioriteti ilə xarici iqtisadi fəa-

liyyətinin ayrı-ayrı iştirakçıların və dövlətlərin maraqlarının nəzərə alınması.

3. Nəinki xarici iqtisadi təhlükəsizliyin təmin edilməsi, həmçinin xarici təhlükəsizliyin: ərzaq, texnoloji, ekoloji, elmi, valyuta, maliyyə və s. bütövlükdə təmin edilməsi.
4. Xarici ticarət dövriyyəsi strukturunun, başqa sözlə desək, idxal və ixrac strukturunun, həmçinin malların idxal və ixrac xidmət və investisiyalar üzrə dövlət strategiyasının yaxşılaşdırılmasına kömək edilməsi.
5. Valyuta əməliyyatlarının həyata keçirilməsi üzrə dövlət nəzarətinin gücləndirilməsi.

Beynəlxalq münasibətlər sistemində dövlətlər milli xarici gömrük siyasəti mövqeyi ilə çıxış edir və bu zaman dövlətlərarası əməkdaşlığın inkişafı ilə yanaşı, ilk növbədə, özlərinin iqtisadi suverenliyinin mühafizəsi üzrə konkret məqsədyönlü fəaliyyəti həyata keçirirlər. Lakin bütün bunlara yekun olaraq qeyd etmək lazımdır ki, Azərbaycanın gömrük sistemi dövlətin iqtisadi suverenliyi və təhlükəsizliyinin qorunmasına, daxili bazarın xarici rəqabətdən müdafiəsinə və paralel olaraq AR-ın beynəlxalq iqtisadi inteqrasiyasına kömək göstərməyə xidmət etməlidir. Bu isə onun praktik realizəsi kimi AR gömrük orqanlarının üzərinə bir vəzifə kimi qoyulur. Gömrük siyasətinin formalaşdırılması və realizəsi isə dövlətin bütün hakimiyyətinin – həm qanunverici, həm icraedici, həm də məhkəmə orqanlarının iştirak etdiyi mürəkkəb bir prosesdir.

İndi isə gömrük tarif tənzimlənməsinin gömrük işi sistemindəki yerini təhlil edək və gömrük siyasəti ilə qarşılıqlı əlaqələrini aydınlaşdıraq. Gömrük tarif tənzimlənməsi dövlətin gömrük işinin iqtisadi maliyyə blokuna aiddir və ədəbiyyatda qeyd edildiyi kimi, xarici ticarətin iqtisadi tənzimləyicisi kimi çıxış edir [12, 407].

Ədəbiyyada çox vaxt ticarət siyasəti anlayışı gömrük siyasəti anlayışı ilə eyni mənada işlədilir [18, 592]. Dövlətin xarici ticarət siyasəti gömrük-tarif tənzimlənməsi və qeyri-tarif tənzimlənməsi vasitəsilə həyata keçirilir [13, 360]. Gömrük tarif tənzimlənməsinin gömrük siyasəti ilə birbaşa əlaqədə olması K.K.Sandrovski tərəfindən düzgün olaraq göstərilmişdir. Belə ki, onun fikrincə, gömrük tarifi hər bir dövlət tərəfindən onun xarici ticarət siyasətinin və xarici iqtisadi fəaliyyətinin dövlət tənzimlənməsinin əsas başlanğıclarından irəli gəlməklə müstəqil müəyyən edilir [15, 261-262].

Başqa sözlə, gömrük tarifi ticarət siyasətinin başlıca vasitəsi kimi çıxış edir [10, 204]. Gömrük tarif tənzimləyicisi iqtisadi inteqrasiyanın mühüm formalarından olan gömrük ittifaqlarının yaranmasının əsas xüsusiyyətlərindəndir. Belə ki, yaradılan gömrük ittifaqlarında vahid ticarət rifahının və vahid xarici ticarət siyasətinin həyata keçirilməsi qeyd edilir [20, 892].

Gömrük siyasətinin realizəsində mühüm əhəmiyyətli məsələlərdən biri xarici iqtisadi fəaliyyətin qeyri-tarif tənzimlənməsini xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üzrə təşkilati, hüquqi, inzibati, maliyyə və təşkilati texniki xarakterlər üzrə təhlil etmək olar. İdxal əməliyyatlarında qeyri-tarif məhdudiyyətlər dedikdə, xarici malların daxili bazara nüfuz etməsinin qarşısını alan məhdudlaşdırma, o cümlədən qadağan xarakterli tədbirlər başa düşülür. Ədəbiyyatda göstərilir ki, bu tədbirlərin məqsədi yalnız idxal edən ölkənin rəqabət qabiliyyətinin gücləndi-

rilməsi deyil, həm də milli sənayenin müdafiəsi, əhalinin həyat və sağlamlığının, ətraf mühitin, əxlaqın, dinin və milli təhlükəsizliyin qorunmasıdır [5, 151].

Bütövlükdə qeyd etmək lazımdır ki, qeyri-tarif metodları məhdudlaşdırılmış müddət ərzində böyük olmayan qrup mallara münasibətdə tətbiq edilir və dövlətin operativ müdaxiləsini tələb edən iqtisadi və sosial problemlərin həlli məqsədini daşımalıdır. Bu münasibətləri təhlil edən İ.V.Timoşenko haqlı olaraq göstərir ki, qeyri-tarif metodları dövlətlərin daxili bazarını ləğv etmir, əksinə, onun normal fəaliyyət göstərməsinə şərait yaradır [17, 275-276]. Belə ki, qeyri-tarif maneələrin özü birbaşa milli bazara xarici mənşə məhsullarının daxil olmasına çətinliklər yaradır ki, bu da dövlətin gömrük siyasəti ilə birbaşa bağlıdır.

AR GM-də qeyri-tarif metodları iqtisadi siyasət tədbirləri kimi müəyyənləşdirilmişdir. Belə ki, GM-in 17-ci maddəsinin 18-ci bəndində qeyd edilir ki, iqtisadi siyasət tədbirləri AR-ın iqtisadi siyasəti baxımından müəyyən olunan və özündə kvotalaşdırma, lisenziyalaşdırma, limitləşdirmə, minimum və maksimum qiymətlərin müəyyənləşdirilməsi, həmçinin Azərbaycan iqtisadiyyatının dünya təsərrüfatı ilə qarşılıqlı əlaqələrini tənzimləyən digər tədbirləri cəmləşdirə bilən, malların və nəqliyyat vasitələrinin ölkəyə gətirilməsi və ya ölkədən aparılması üzrə stimullaşdırıcı və məhdudlaşdırıcı tədbirlər sistemidir [2, 20].

Qeyri-tarif tənzimlənməsinin mühüm istiqamətlərindən biri də qeyri-tarif tədbirlərin təsnifatıdır. Bu məsələ də hüquq ədəbiyyatında müxtəlif istiqamətlərdə həll edilir. Məsələn, K.F.Heydərov qeyri-tarif məhdudiyyətlərin təsnifatı probleminə yanaşaraq göstərir ki, birbaşa və dolayı yolla xarici ticarəti tənzimləyən tədbirlər adətən 8 qrupa bölünür: tarif, paratarif, qiymətlərə nəzarət, maliyyə, lisenziyalaşdırma, kəmiyyət nəzarəti, monopolist tədbirlər, texniki tədbirlər [5, 151]. Daha sonra, qeyri-tarif məhdudiyyətlər bir neçə istiqamətdə təsnifləşdirilir. Məsələn, xarakterinə görə birbaşa və gizli; yayılma dərəcəsinə görə sərt vasitələr; mülayim vasitələr və s. Eyni zamanda, vicdanlı xarici tədarükçülərə münasibətdə icazə verilən qeyri-tarif müdafiə tədbirləri ədalətsiz xarici tədarükçülərə qarşı icazə verilən qeyri-tarif tədbirlərdə fərqləndirilir [16, 12-14].

BMT tərəfindən qəbul edilmiş qeyri-tarif metodlar 3 qrupa bölünür. Belə ki, birinci qrup metodlar milli istehsalın ayrı-ayrı növlərinin müdafiəsi məqsədilə idxalın birbaşa məhdudlaşdırılmasına yönəlmişdir və daha geniş yayılmış metodları özündə əks etdirir (lisenziyalaşdırma, kvotalaşdırma, antidempinq və kompensasiya rüsumları) və s. İkinci qrup metodlar isə xarici ticarətin məhdudlaşdırılmasına yönəlməsə də, daha çox inzibati bürokratik prosedurlara aiddir ki, bunlar da ticarəti məhdudlaşdırır (Gömrük rəsmiləşdirmələri, texniki standart və normalar, sanitar və baytar normaları, qablaşdırmaya aid tələblər və s.). Üçüncü qrup metodlar idxalın məhdudlaşdırılmasına və ya ixracın stimullaşdırılmasına bilavasitə yönəlməsə də, çox vaxt bu nəticəyə gətirib çıxarır [11, 395].

Qeyri-tarif tədbirləri iqtisadi tədbirlər (xüsusi növ rüsumlar, müxtəlif vergi və yığımlar, idxal depozitləri, valyuta tənzimlənməsi tədbirləri) və inzibati tədbirlər (embarqo, lisenziyalaşdırma və kvotalaşdırma, ixracın məhdudlaşdırılması, monopolit tədbirlər, proteksionist məqsədlər üçün standart və texniki normalardan istifadə edilməsi, əlavə

gömrük sənədləri və əməliyyatları) kimi iki qrupa bölünür və göstərilir ki, iqtisadi məhdudiyyətlər bazar mexanizmi vasitəsilə təsir göstərərək idxal və ixrac mallarını bahalaşdırır, inzibati məhdudiyyətlər isə bazar münasibətlərindən başqa idxal mallarının dövlətə daxil olmasını və ixrac mallarının xaricə çıxarılmasını məhdudlaşdırır [5, 151-152].

İ.V.Timoşenko RF praktikasında bu məsələləri təhlil edərək qeyd edir ki, hazırkı dövrdə xarici ticarətin qeyri-tarif tənzimlənməsi metodları özündə aşağıdakıları əks etdirir: ayrı-ayrı malların gətirilməsi və çıxarılmasına qadağalar qoyulması; ixracın və idxalın kvotalaşdırılması və lisenziyalaşdırılması; ayrı-ayrı malların gətirilməsi və çıxarılması icazəli sistemi; ayrı-ayrı malların təhlükəsizlik və müvafiq dövlət standartlaşmasına uyğunluğu üzrə sertifikatlaşdırma; ixrac nəzarəti proseduru; malların bəyan edilməsi proseduru [17, 275-276].

Beləliklə, dünya praktikası və ticarət siyasətində 2 qrup qeyri-tarif məhdudlaşdırmaları fərqləndirmək olar:

1. Bilavasitə xarici ticarətin tənzimlənməsi məqsədilə xüsusi olaraq yaradılan qeyri-tarif məhdudlaşdırmalar (qadağalar, kvotalaşdırma, lisenziyalaşdırma və s.).

2. Texniki siyasətin həyata keçirilməsi, səhiyyə normalarının realizəsi, maliyyə və inzibati tədbirlərin həyata keçirilməsi nəticəsində yaranan qeyri-tarif məhdudlaşdırmalar.

Ədəbiyyatda haqlı olaraq göstərilir ki, əksər hallarda intensiv sayda qeyri-tarif metodlarından istifadə edilməsi bütövlükdə dövlətin ticarət siyasətinin daha da məhdudlaşdırılmasına gətirib çıxarır [10, 233].

Azərbaycanın gömrük əlaqələri daim xarici ölkələrlə gömrük işi sahəsində beynəlxalq əməkdaşlığın gələcəkdə möhkəmləndirilməsi üzrə ardıcıl işə yönəlmişdir. Azərbaycanda həm ayrı-ayrı ölkələrin təşəbbüsü, həm də ÜGT-nin tövsiyəsilə daim təcrübələr keçirilir və kurslar təşkil olunur.

Azərbaycanda gömrük siyasətini həyata keçirən əsas orqan Dövlət Gömrük Komitəsidir (DGK). AR müstəqilliyin ilk illərində 1992-ci il yanvarın 30-da mühüm dövlətçilik atributlarından biri olan DGK-nin yaradılmasına nail oldu. Hazırda DGK bir sıra əsas funksiyaları yerinə yetirirlər. İlk növbədə, Respublikanın gömrük siyasətinin işlənib hazırlanmasında iştirak edir və bu siyasəti həyata keçiririlər, AR-in iqtisadi təhlükəsizliyini təmin edirlər. Respublikanın iqtisadi mənafeyinin qorunması, gömrük rüsumları, vergilər və digər gömrük ödənişlərin alınması və s. Bu funksiyaları idarəetmə obyektinə təsir etmədən həyata keçirmək mümkün deyildir [4].

Hər zaman idarəetmə obyektinə idarəetmə subyekti təsir edir. İdarəetmə subyekti ilə obyekti arasında qarşılıqlı və mütəşəkkil əlaqələr yaradılmalıdır. Məhz bu əlaqələr gömrük orqanlarının idarəetmə sistemini əmələ gətirir. Gömrük orqanlarında idarəetmə subyektlərinə idarəetmə qərarları qəbul etmək, tabeliyindəki kollektivlərə tapşırıqlar vermək və onun icrasını tələb etmək səlahiyyəti olan bütün rəhbərlər, digər elementlər və yarımsistemlər aiddir. Ümumiyyətlə, gömrük orqanlarında idarəetmə kordinasiyalı şəkildə yuxarıdan aşağıya doğru təşkil edilmişdir. Yəni səlahiyyətləri daxilində rəhbərlik tərəfindən verilən bütün göstərişlərin icrası məcburidir. İdarəedən yarım sistemin qərarlarının, əmrlərini, tapşırıqlarının icraçıları, gömrük mütəxəssisləri, gömrük kollektivləri, təşkilatı strukturlar, gömrük orqanları üzərinə qoyulmuş funk-

siyaların həyata keçirilməsi üzrə bütün fəaliyyət növləri və s. gömrük orqanlarında idarəetmə obyetlərində çıxış edir.

İdarəetmə subyekti və obyekti arasında təşkilati idarəetmə srukturundan, digər faktorlarından asılı olan qarşılıqlı əlaqə və münasibətlər vardır. İdarəetmə strukturunda onlar əhəmiyətli rola malikdir.

DGK-nın idarəedilməsi növbəti qaydada təşkil edilir. AR DGK-ya Sədr rəhbərlik edir. AR GM-in 7-ci maddəsinə əsasən gömrük orqanı haqqında əsasnamə AR Prezidenti tərəfindən təsdiq edilir. DGK Sədri Prezident tərəfindən təyin edilir və azad edilir. Azərbaycan Respublikasının gömrük işini bilavasitə həyata keçirən orqanlar Dövlət Gömrük Komitəsi tərəfindən təsdiq edilən əsasnamələrə uyğun fəaliyyət göstərirlər [4].

GM və AR-in digər qanunvericilik aktlarında nəzərdə tutulan hallarda DGK öz səlahiyyətləri daxilində Respublikanın gömrük orqanları, Azərbaycanın bütün başqa dövlət orqanları, tabeçiliyindən və başqa mülkiyyət formalarından asılı olmayaraq idarələr, müəssələr və təşkilatlar, habelə vəzifəli şəxslər və vətəndaşlar üçün icrası məcburi olan normativ aktlar qəbul edir. Göstərilən normativ aktlar AR qanunvericiliyinə uyğun olaraq qeydiyyatdan keçirilir.

Hər bir idarəetmə aparatında olduğu kimi DGK-da da idarəetmənin səmərəli təşkili üçün mütəmadi olaraq kollegiya iclasları təşkil edir. Adətən kollegiya iclaslarına sədr rəhbərlik edir. Kollegiya iclaslarında Sədrin müavinləri, gömrük orqanlarının, gömrük laboratoriyalarının, tabeçilikdə olan digər idarə, müəssisə və təşkilatların rəhbərləri iştirak edirlər. Kollegiyanın tərkibi vəzifələr üzrə DGK Sədrinin təqdimatına əsasən AR Prezidenti tərəfindən təsdiq edilir. İclaslarda əsasən DGK fəaliyyəti ilə bağlı məsələlərə baxılır və onlar haqqında qərarlar çıxarılır. Qərar Azərbaycan Respublikası DGK Sədrinin əmrləri ilə həyata keçirilir. DGK dövlət büdcəsinin vəsaiti hesabına və qanunvericilikdə nəzərdə tutulmuş digər mənbələr hesabına maliyyələşdirilir.

AR DGK gömrük siyasətinin işlənib hazırlanmasına mühüm rol oynayır. Bu idarəetmə orqanı gömrük işinə aid qanunvericilik aktlarının və digər hüquqi aktların layihələrini işləyib hazırlayır. Bu gün Respublikamız iqtisadi sahədə dünya dövlətləri liə sıx əməkdaşlıq edir. Bu sahədə DGK-nın da öhdəsinə çox böyuk işlər düşür. Xarici investisiyaların ölkəyə cəlb edilməsi və ixracın stimullaşdırılması da daxil olmaqla, iqtisadiyyat sahəsində Respublikamızın dünya birliyi ilə qarşılıqı münasibətlərinin tənzimlənməsində əvəzsiz rol oynayır. DGK hüquq-mühafizə orqanı olduğundan dövlət təhlükəsizliyinin, ictimai asayişini, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının qorunmasında yaxından iştirak edir.

İdxal-ixrac əməliyyatlarına nəzarət, Respublikamız üçün əvəzsiz əhəmiyyətə malik malların və materialların ixracına, habelə mədəni sərvətlərin aprılmasına nəzarət də gömrük orqanları qarşısında qoyulan əsas vəzifə hesab edilir.

Bu gün Respublika büdcəsinin formalaşdırılmasında gömrüyün xüsusi çəkisi vardır. Respublikanın gömrük sərhəddindən keçirilən mallara gömrük rüsumlarının, vergilərin, habelə digər ödənişlərin tətbiqi mexanizmi DGK tərəfindən təkliflərin verilməsi ilə işlənib hazırlanır.

Hazırda XXI əsrin elm-texnika əsri olduğu danılmaz faktdır. Gömrük orqanlarıda işini bu istiqamətdə təşkil etməlidir. Qabaqcıl tex-

nologiyadan istifadə etmək idarəetmənin səmərəli təşkilinə yol açmış olur. Rabitə və məlumatların ötürülməsi sistemini yaratmaq, bütün gömrük prosedurlarında muasir avadanlıqlardan istifadə, gömrük nəzarəti işini mütərəqqi, qabaqcıl texnologiyalarla həyata keçirmək gömrük sahəsində çalışanların ümdə vəzifəsi hesab edilməlidir.

Qeyd olunan işlərin aprılması üçün düzgün və səmərəli idarəetmə təşkil edilməlidir. Hazırda dövlətçilik dayaqlarının getdikcə möhkəmlənməsi gömrük sahəsində müsbət irəliləyişə gətirib çıxarır. İdarəetmə təkmilləşir, dünya dövlətlərinin çoxillik təcrübəsindən istifadə etmiş, bir sözlə gömrük orqanlarının struktur və bölmələrinin işi qanunvericilikdə nəzərdə tutulmuş qaydada təşkil edilir.

AR-in ÜGT ilə münasibətlərinə gəlincə onu qeyd etmək lazımdır ki, AR 1999-cu il iyun ayının 24-də ÜGT-nin Maliyyə Komitəsinə keçirilən seçkilərdə səs çoxluğu ilə həmin quruma, 2000-ci ildə isə Siyasi Komissiyaya üzv seçilmişdir. Respublikamız ÜGT-yə daxil olduğu andan onun nüfuzu yüksələn xətt üzrə inkişaf etmişdir. Bunun ən sadə sübutu Təşkilatın Baş Katibi Mişel Danenin 1999-cu il sentyabr ayının 13-də MDB məkanında ilk dəfə olaraq Azərbaycana rəsmi səfərə gəlməsi olmuşdur. AR-in bu Təşkilatdakı böyük nüfuzu rəsmi dairələrdə yalnız düzgün gömrük siyasəti ilə əlaqələndirilsə də, fikrimizcə burada həm də Azərbaycanın əlverişli iqtisadi-coğrafi mövqeyinin və zəngin resurs ehtiyatlarının stimullaşdırıcı elementlər kimi rolunu danmaq olmaz. Buna sübut kimi Azərbaycanla, demək olar ki, eyni gömrük siyasəti aparan post-sosialist ölkələrinin (SSRİ-nin hüquq varisi Rusiya Federasiyası istisna olmaqla) bu Təşkilatdakı nüfuzuna nəzər salmaq kifayətdir.

ÜGT-nin Siyasi Komissiyasının 44-cü sessiyasının 2000-ci il 5-7 dekabrında Bakı şəhərində keçirilməsi AR tərəfindən digər dövlətlərlə və beynəlxalq təşkilatlarla daha sıx əməkdaşlıq etməsi kimi çox müsbət qiymətləndirilməlidir. 30 yanvar 2002-ci il tarixdə ÜGT-nin Baş Katibi Mişel Dane və AR DGK Sədri K.Heydərov arasında Bakı şəhərində ÜGT-nin Regional Mərkəzinin təsis edilməsi haqqında Memorandum imzalanmışdı. Regional Mərkəzin açılışı 20 yanvar 2003-cü ildə olmuşdur. Mərkəzdə bir çox regional və beynəlxalq təlim kursları keçirilmişdir. ÜGT-nin köməyilə Mərkəzdə ÜGT-nin üzvü olan region dövlətləri üçün elektron təlim proqramı platforması (e-learning) yaradılmışdır.

18 may 2004-cü il tarixdə Brüsseldə «Dədə Qorqud» abidəsinin açılış mərasimi baş tutmuşdu. Həmin gündə ÜGT-nin Baş Katibi Mişel Dane və AR DGK-nın Sədri K.Heydərov arasında Azərbaycan və bu Təşkilat arasında əsas məqsədlər haqqında Protokol imzalandı. Protokolda əsas diqqət müasir dövrdə ticarətin qloballaşması şəraitində gömrük orqanlarının fəaliyyətinin çətinləşməsinə, gömrük sərhədlərinin təhlükəsizliyi, Böyük İpək Yolu ilə narkotiklərin qeyri-qanuni dövriyyəsi üzrə regional problemlərə yönəlmişdir.

ÜGT-yə daxil olma bütün dövlətlər üçün olduğu kimi Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb edir. Belə ki, ÜGT-yə üzv olmaqla dövlət müəyyən üstünlüklər əldə edir, həmçinin onun konvensiyalarına qoşulmaqla müəyyən öhdəlikləri öz üzərinə götürür. Məsələn, 1988-ci il Malların təsviri və kodlaşdırılmasının Harmonizasiya edilmiş sistemi haqqında Konvensiyaya qoşulma AR üçün Harmonizasiya edilmiş sistem nomenklaturasında verilən və onun ayrılmaz hissəsini təşkil edən prinsiplərdən – malların kodlaşdırılması və adlandırılması prinsipindən

gömrük, xarici ticarət və statistik məqsədlərlə istifadə etmək öhdəliklərinin qəbul edilməsini bildirir. Malların təsviri və kodlaşdırılmasının Harmonizasiya edilmiş sistemi haqqında Beynəlxalq Konvensiyada AR-in iştirakı mühüm xarici ticarət üstünlükləri (gömrük, statistik, danışıq) verir, eyni zamanda xarici bazarda AR-in məhsulunun rəqabət qabiliyyətinin təmin edilməsi məqsədilə istehsalat standartlarının Konvensiya normalarına uyğunlaşdırılmasını tələb edir.

Azərbaycan və ÜGT arasında əməkdaşlığı statistik rəqəmlər baxımından təhlil edək. ÜGT-nin Brüsseldəki 101-ci və 102-ci sessiyalarında AR Dövlət Gömrük Komitəsi nümayəndə heyətinin ÜGT-nin Azərbaycandakı fəaliyyətinin dövrü yekununa dair hesabatına nəzər salaq:

-120 missiya;

- 950 tədris günü;

- təqribən 3 min təlim keçmiş zabit;

-1 milyon 200 min avrodan artıq xərclənmiş vəsait.

Statistik rəqəmlərdən də göründüyü kimi, Respublikamız ÜGT ilə əməkdaşlıqda MDB məkanında yalnız Rusiyadan geri qalır, Qafqaz ölkələrinə isə Azərbaycanın əldə etdiyi uğurları təkrarlamaq üçün bir neçə il tələb olunur. Respublikamızın bu Təşkilatla əməkdaşlıqdan əldə etdiyi ən böyük uğur isə, fikrimizcə ÜGT-nin Regional Tədris Mərkəzinin digər Qafqaz ölkələrində deyil, məhz Azərbaycanda yaradılmasına dair qərarın qəbul edilməsi oldu. Bu Tədris Mərkəzinin tərkibində tədris, mehmanxana və sağlamlıq korpuslarını, həmçinin itlər vasitəsilə narkotik və partlayıcı maddələrin aşkar edilməsi, treninq bazasını birləşdirən bütöv bir kompleks qurulmuşdur və hazırda öz fəaliyyətini uğurla davam etdirir.

19 may 2005-ci ildə isə Bakıda H.Əliyev adına İdman və Sərgi Kompleksində daha bir dünya əhəmiyyətli tədbir – II Ümumdünya Gömrük Sərgisi və Forumu işə başladı. Tədbirdə 12 ölkədən 45 şirkət iştirak edirdi. Onlar arasında dünya miqyaslı şirkətlər də iştirak edirdilər: ALPVISION (İsveçrə); AS&E (ABŞ); BEIJING HUALIXING (Çin); COTECNA (İsveçrə); CROWN AGENTS (Böyük Britaniya); DNA TODAY (ABŞ); FM-ONE MANAGEMENT SERVICES (Almaniya); L3 SECURITY & DETECTION SYSTEMS (Böyük Britaniya). Sərgidə mütərəqqi hallardan biri də o idi ki burada artıq özünü tapmış milli şirkətlər: INTERMEDSERVICE, KC & SS, MARCO COMPUTER, MURPHY, SINAM, SS - SECURITY SYSTEMS və AZER-JANUB şirkətləri də iştirak edirdilər. Bundan başqa sərgidə və forumda dünyanın bir çox ölkələrindən və beynəlxalq təşkilatlarından bir çox nümayəndələr iştirak edirdilər.

Bu tədbirin yalnız gömrük işi istiqamətində deyil, həmçinin Azərbaycanın Qarabağ məsələsindəki haqlı mövqeyinin beynəlxalq səviyyədə müdafiəsində böyük əhəmiyyəti vardır. Çünki məhz belə tədbirlər nəticəsində ölkəmiz əvvəllər adlandırıldığı «Neft yatağından» müasir və öz sözünü deyən bir dövlətə çevrilmişdir.

Azərbaycanın gömrük siyasəti və ÜGT ilə əlaqələri sferasında yuxarıda qeyd etdiklərimizi ümumiləşdirərək biz aşağıdakı nəticələrə gəlirik: Gömrük tarif tənzimlənməsi dövlətin gömrük işinin mühüm blok elementlərindən biri olmaqla dövlətin gömrük siyasətinin həyata keçirilməsinin əsasını təşkil edir; Müasir dövlətlərarası münasibətlər sferasında xarici iqtisadi fəaliyyətin gömrük münasibətlərinin tənzimlənməsi hər bir dövlətin qarşısında duran mühüm vəzifələrdən biridir. AR tim-

salında bu münasibətlərin təhlili kifayət qədər əhəmiyyətlidir; Gömrük tənzimlənməsi dövlətin xarici ticarət dövriyyəsinə təsirinin əsas vasitələrindən biridir. Belə ki, onun köməyi ilə AR bir tərəfdən öz iqtisadiyyatının dünya təsərrüfatına azad çıxışını təmin edir, digər tərəfdən isə ayrı-ayrı malların ölkə ərazisinə gətirilməsi və çıxarılmasını tənzimləməklə müəyyən qadağalar və məhdudiyyətlər qoyulması, lisenziyalaşdırma, kvotalaşdırma və Azərbaycan istehlakçılarının maraqlarının təmin edilməsi məqsədilə digər tədbirlərin görülməsini təmin edir; Gömrük siyasəti iqtisadi təhlükəsizliyin müdafiəsi, ictimai qaydanın, insanların həyat və sağlamlığının, cəmiyyətin əxlaqi və mənəvi dəyərlərinin qorunması, həmçinin AR gömrük sərhədindən malların və nəqliyyat vasitələrinin keçirilməsi zamanı gömrük ödənişlərinin alınması yolu ilə dövlət büdcəsinin gəlir hissəsinin doldurulmasını təmin edir;

Fikrimizcə, hazırda müasir beynəlxalq münasibətlərin hansı istiqamətdə inkişaf etməsindən asılı olmayaraq milli gömrük siyasətinin inkişafını təmin etmək məqsədilə ÜGT ilə aşağıdakı strateji perspektivlərin müəyyən edilməsi daha doğru olardı: gömrük işi sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və dəqiqləşdirilməsi; gömrük rəsmiləşdirilməsi və nəzarəti prosedurlarının sadələşdirilməsi, xarici ticarət əməliyyatlarının gömrük rəsmiləşdirilməsi üçün xüsusi, yalnız bu iş üçün təyinatlandırılmış mərkəzlərin yaradılması; spesifik və advalor rüsumların alternativ rüsumlarla əvəz olunması; yeni texnologiyaların rasional və inteqrasiya olunmuş istifadəsinin həvəsləndirilməsi; gömrük və digər inzibati proseslərdə, həmçinin ödəmə sistemi və maliyyə xidmətlərindəki beynəlxalq ticarəti dəstəkləyən əsas xidmət və fəaliyyət sahələrində lazımsız və ya hədsiz ticarət maneələrinin müəyyənləşdirilməsi və aradan qaldırılması; korrupsiya ilə mübarizənin gücləndirilməsi; ölkə iqtisadiyyatının təhlükəsizliyinə zərər vuran cinayətlərin və hüquqpozmaların aşkar olunması və qarşısının alınması, xarici ticarət əməliyyatları üzərində effektiv nəzarətin təşkili; ticarət əməliyyatları sahəsində qabaqcıl təcrübənin müəyyən edilib istifadə olunması; gömrük brokeri institutlarının inkişaf etdirilməsi; gömrük orqanları və işgüzar dairələr arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi; gömrük orqanı mütəxəssislərinin, əməkdaşlarının, xüsusən də gömrük sərhədindən keçirilən mallara tarif dərəcələri ilə işləyən və onların dəyişdirilməsini əsaslandıra biləcək mütəxəssislərin ixtisaslarının müntəzəm artırılması; DGK-nın bu işin effektiv təşkilində maraqlı olan digər nazirliklərlə, komitələrlə, iqtisadiyyatın real sektorları, regionlar və s. qurumlarla əlaqələrinin gücləndirilməsi; Azərbaycanın məhz ÜGT-də aktiv iştirakı Respublikamızın xarici iqtisadi əlaqələrin gömrük tənzimlənməsi ilə bağlı mühüm məsələlərin həlli üzrə əməkdaşlıq və qarşılıqlı yardımla əlaqədar beynəlxalq münasibətlərə daxil olmasından xəbər verir. Azərbaycanın beynəlxalq gömrük tənzimlənməsi sisteminə, həmçinin bir çox xarici dövlət və ittifaqlarla mühüm məsələlərin həlli ilə əlaqədar beynəlxalq əməkdaşlıq və qarşılıqlı yardım sisteminə daxil olması daha da sürətlənmişdir.

### ƏDƏBİYYAT


1. «Azərbaycan» qəzeti, Bakı: 2004, 21 oktyabr.
2. Azərbaycan Respublikasının Gömrük Məcəlləsi. Bakı: Qanun, 2005, 180 s.
3. Əliyev Ə.İ. Azərbaycan Respublikasının gömrük siyasəti və gömrük işi sferasında beynəlxalq hüquqi əməkdaşlıq məsələləri / Beynəlxalq münasibətlər

və beynəlxalq hüquq fakültəsinin 10 illiyinə həsr olunmuş elmi konfransın materialları. Bakı: 2002, s.232-233.
4. Heydərov K.F. Gömrük işinin əsasları: 4 clddə. I c. Gömrük işinin təşkili və texnologiyası. Bakı: Azərnəşr, 1998, 378 s.
5. Heydərov K.F. Gömrük işinin əsasları. 4 clddə. II c. Gömrük orqanlarının iqtisadi fəaliyyəti. Bakı: Azərnəşr, 1999, 392 s.
6. «Respublika» qəzeti, Bakı, 2003, 9 dekabr
7. Борисов К. Г. Международное таможенное право: Учебное пособие. М.: Изд-во РУДН, 1997, 224 с.
8. Габричидзе Б.Н. Российское таможенное право: Учебник для вузов. М.: Издательство НОРМА (Изд. группа НОРМА – ИНФРА·М.), 2001, 225 с.
9. Ершов А.Д. Международные таможенные отношения: Учебное пособие. СПб.: ИВЭСЭП, Знание. 2000, 207 с.
10. Киреев А.П. Международная экономика. В 2-х ч. Ч.I. Международная микроэкономика: движение товаров и факторов производства. Учебное пособие для вузов. М.: Междунар. отношения, 2002, 416 с.
11. Е.Рыбалкин, Ю.А.Щербанин, Л.В.Балдин и др. Международные экономические отношения: Учебник для вузов / Под ред. В.Е.Рыбалкина. 5-е изд., перераб. и доп. М.: ЮНИТИ – ДАНА, 2004, 605 с.
12. Международные экономические отношения: Учебник / Под ред. А.И.Евдокимова и др. М.: ТК Велби, 2003, 552 с.
13. Назаренко В.М., Назаренко К.С. Таможенное обслуживание внешнеэкономической деятельности. М.: Экзамен, 2001, 767 с.
14. Самедзаде З.А. Этапы большого пути – экономика Азербайджана за полвека, ее новые реалии и перспективы. Баку: Издательско-Полиграфический Центр Нурлар, 936 с.
15. Сандровский К.К. Международное таможенное право: Учебник. 3-е изд., стер. Киев: О-во Знания, КОО, 2002, 461 с.
16. Сергеева В.И. Нетарифные ограничения в системе внешнеторгового регулирования: зарубежный и отечественный опыт: Автореф. дисс. на соис. учен.степ. канд. эконом. наук. М.: 2003, 31 с.
17. Тимошенко И.В. Таможенное регулирование ВЭД. М.: Бератор Пресс, 2003, 304 с.
18. Фердросс А. Международное право. Пер. с немец. Ф.А.Кубличкого и Р.Л.Нарышкиной / Под ред. Г.И. Тункина. М.: Иностранная литература. 1959, 652 с.
19. Чернышов С.И., Худойкина Т.В.Таможенная политика и юридический конфликт. М.: Бератор Пресс, 1999, 247 с.
20. Экономика: Учебник. 3-е изд., перераб. и доп. / Под ред. А.С.Булатова. М.: Юристъ, 2002, 896 с.

## ТАМОЖЕННАЯ ПОЛИТИКА АР И СОТРУДНИЧЕСТВО СО ВСЕМИРНОЙ ТАМОЖЕННОЙ ОРГАНИЗАЦИЕЙ: ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ И НОВЫЕ ПОДХОДЫ

**А.М.МАГЕРАМОВ**

### РЕЗЮМЕ

В данной статье изложены основные отличающие черты таможенной системы в новейшей истории Азербайджанской Республики. По этому поводу особо отмечены основные направления таможенной политики Азербайджанской Республики и формирования благоприятных взаимоотношений со Всемирной Таможенной Организацией. Помимо того, отмечены все аспекты взаимосвязей Азербайджанской Республики со Всемир-

ной Таможенной Организацией с конкретными фактами. Кроме того, в данной статье рассмотрены вопросы тарифного и нетарифного регулирования внешних экономических связей и роль Всемирной Таможенной Организации в регулировании этих действий.

**CUSTOMS POLICY OF AZERBAIJAN REPUBLIC AND COOPERATION WITH THE WORLD CUSTOMS ORGANIZATION: HISTORICAL ASPECTS AND NEW APPROACHES**

**A.M.MAGERRAMOV**

**SUMMARY**

In the presented article the main distinctive features of customs system in contemporary history of Azerbaijan Republic are introduced. The main directions of Customs Policy of Azerbaijan Republic and formation of favorable relations with World Customs Organization are stated. Besides, in the presented article all aspects of interrelationship of Azerbaijan Republic with the World Customs Organization are stated with definite facts. Besides, the issues of tariff and non-tariff regulations of international economic relations and the role of the World Customs Organization in regulation of these activities are submitted for consideration.